# Qarabağ yenidən cənnətə çevriləcək



**_Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarına səfəri uzun zaman xatirimizdə yaşayacaq. Dövlət başçısının Xudafərin körpüsünə gəlişi, Azərbaycan bayrağını bu tarixi abidənin üzərində qaldırması bizim üçün əsl qürur və fəxarətdir. Xalqımızın mənəviyyatında, tarixində dərin iz buraxan Xudafərin həm də milli qürur məsələmizdir._**

Bundan sonra Prezident və birinci xanım Cəbrayılda oldular. Ali Baş Komandan Cəbrayılda üçrəngli bayrağımızı qaldırdı. Azərbaycanın qalib lideri mənfur erməni qüvvələrinin dağıdıb viran qoyduğu Cəbrayılı xalqımıza və bütün beynəlxalq ictimaiyyətə göstərək bildirdi ki, bizim necə bir yaramaz düşmənlə üz-üzə olduğumuzu qoy hamı görsün. Prezidentin təqdim etdiyi kadrlardan gördük ki, vaxtilə rayon mərkəzi, şəhər olmuş Cəbrayılda bütün binalar dağıdılıb, talan edilib. Təbii ki, ermənilərin məqsədi azərbaycanlıların bir də bu yerlərə qayıtmasına imkan verməmək olub. Dövlət başçısı isə bəyan etdi ki, biz bu yerlərdə əbədi yaşayacağıq. Üstəlik, mənfur ermənilər tərəfindən dağıdılmış nə varsa, hamısını bərpa edəcəyik: "İndi bütün dünya görəcək Cəbrayıl şəhərini nə günə salıblar".

Prezident İlham Əliyev bəyan etdi ki, Cəbrayılda dağıdılmış infrastrukturun, evlərin, binaların, məktəblərin, ictimai binaların hamısı qeydə alınır, düşmənlər bu barbarlıqlarına görə cavab verəcəklər: "Beynəlxalq məhkəmələrdə cavab verəcəklər. Mən demişəm, bir daha demək istəyirəm ki, beynəlxalq qurumlar gələcək, ekspertlər gələcək, bütün ziyan hesablanacaq. Otuz il ərzində bizə vurulmuş ziyan hesablanacaq. Bu günlərdə Kəlbəcəri dağıdan, meşələri qıran, binaları, məktəbləri yandıran düşmən onun da cavabını verəcək".

Ali Baş Komandan elan etdi ki, viran qoyulmuş bütün yaşayış məntəqələrimizin, eləcə də Cəbrayılın bərpası üçün yeni böyük baş plan tərtib ediləcək. Artıq bununla bağlı müvafiq göstərişlər verilib. Hər bir şəhər üçün xüsusi baş plan tərtib ediləcək. Burada inzibati binalar, ictimai binalar, məktəblər, tibb ocaqları yaradılacaq. Bütün infrastruktur yaradılacaq. Küçələr, parklar, xiyabanlar salınacaq. Bütün şəhərlərdə qələbə abidələri ucaldılacaq.

Ermənistan işqalçılarını oğru, əxlaqsız, vicdansız düşmən adlandıran Prezident bildirdi ki, Azərbaycanın parlaq qələbəsi təkcə ölkəmizin ərazi bütövlüyünün bərpası demək deyil. Bu, həm də xeyir və şər qüvvələrin mübarizəsidir. Şər məğlub olub, xeyir qalib gəlib: "Azərbaycan xalqı bir daha öz böyüklüyünü göstərəcək. Bir daha bütün dünyaya sübut edəcəyik ki, biz böyük xalqıq. Biz qayıtmışıq, vuruşa-vuruşa qayıtmışıq. Heç kim bizə bu torpaqları bağışlamayıb. Heç bir beynəlxalq təşkilat təcavüzkara təzyiq göstərməyib. Heç kim onlardan tələb etməyib ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etsin. Sadəcə olaraq, nə hərb, nə sülh, hər şeyi dondurulmuş vəziyyətdə saxlamaq, işğalı əbədiləşdirmək, bizim tarixi torpaqlarımızın tarixi irsini silmək, torpaqlarımızı erməniləşdirmək, şəhərlərimizə, kəndlərimizə eybəcər erməni adları vermək və bu məsələni Azərbaycan xalqının yaddaşından silmək idi onların məqsədi. Amma səhv etdilər. Dəfələrlə demişəm ki, biz bu işğalla heç vaxt barışmayacağıq. Hər bir cəbrayıllı bir arzu ilə yaşayırdı ki, öz dədə-baba torpağına qayıtsın. Haqq-ədalət zəfər çaldı".

Azərbaycan liderinin dediyi kimi, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Heç şübhəsiz ki, Azərbaycan Prezidenti bütün Qarabağı yenidən abadlaşdıracaq, cənnətə çevirəcək.

**_Şəmistan ƏLİZAMANLI,_**
**_"Vətənpərvərliyin Təbliğinə Dəstək" İctimai Birliyinin sədri_**

Xalq qəzeti 2020.- 20 noyabr.- S.8.